**«Təsdiq edilmişdir»**

**Bakı Fond Birjasının Müşahidə şurası**

**Protokol N _______**

**«15» avqust 2012-ci il**

**Sədr _________ C. Hacıyev**

**Bakı şəhəri**

(BFB-nin 27.06.2014-cü il tarixli 04 nömrəli Qərarının redaksiyasında)

# BAKI FOND BİRJASINDA

## Market-meyker fəaliyyətinə dair daxili qaydalar

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Qanunvericiliyinə, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin normativ-hüquqi aktlarına uyğun olaraq, "Bakı Fond Birjası" QSC-nin Nizamnaməsi və digər daxili sənədləri əsas götürülməklə qəbul olunmuşdur.

1.2. Bu Qaydalar Bakı Fond Birjasında qiymətli kağızlarla bağlı ticarət üzrə bu və ya digər birja üzvünə müvafiq qiymətli kağız və ya qiymətli kağızların ticarəti üzrə market meyker statusunun verilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.3. Bakı Fond Birjası Üzvlərini bu Qaydaların qüvvəyə minməsi haqqında, habelə bu Qaydalara edilən dəyişikliklər və əlavələr haqqında, onların qüvvəyə minməsindən sonra 5 iş günü ərzində xəbərdar edir.

## 2. Anlayışlar

2.1. Bu Qaydalarda istifadə edilən əsas anlayışlar aşağıdakı mənalarda işlədiləcəkdir:

2.1.1. **"Market-meyker"** – Birjada mütəmadi olaraq öz hesabına və Birja ilə razılaşdırılmış qiymət dəhlizi çərçivəsində özü tərəfindən müəyyənləşdirilmiş qiymətlərlə öz vəsaitləri hesabına qiymətli kağızların alqı-satqısını həyata keçirən, Birjanın İdarə Heyəti tərəfindən market meyker səlahiyyətləri verilmiş Birja üzvü və ya Birja üzvü ilə müvafiq qaydada müqavilə bağlamış hüquqi şəxsdir;

2.1.2. **Ticarət sistemi** – Bakı Fond Birjasının proqram təminatı, verilənlər bazası, telekommunikasiya sistemləri və digər avadanlıqlarından ibarət olmaqla, həm bilavasitə birjanın ticarət zalında, həm də ondan kənarda (daxil olmaq üçün terminal vasitəsi ilə) birja əməliyyatları və əqdlərinin həyata keçirilməsi üçün zəruri olan məlumatları təmin etmək, saxlamaq, işləmək və açıqlamaq imkanı verən proqram təminatı və kompüter şəbəkə sistemidir;

2.1.3. **Alış kotirovkası** - Birjanın ticarət sistemində bu qaydaların şərtlərinə uyğun market meyker tərəfindən qiymətli kağızların alışı üzrə verilmiş limit qiymətli sifarişdir;

2.1.4. **Satış kotirovkası** - Birjanın ticarət sistemində bu qaydaların şərtlərinə uyğun market meyker tərəfindən qiymətli kağızların satışı üzrə verilmiş limit qiymətli sifarişdir;

2.1.5. **Qiymət dəhlizi (spred)** – Market meykerin alış və satış qiymətlərini müəyyən edərkən əməl etməli olduğu, qiymətli kağızların cari qiymətinə nəzərən aşağı və yuxarı qiymət dalğalanması arasındakı fərqdir;

2.1.6. **Market-meyker əqdi** – Birjanın daxili qaydalarına və ticarət reqlamentinə uyğun olaraq market-meyker sessiyası daxilində, ən azı bir tərəfdən market-meyker olmaqla bağlanan ticarət əqdləridir;

2.1.7. **Güzəştlər** – Bakı Fond Birjasının qaydalarına uyğun olaraq market meyker əqdləri üzrə market meykerə tətbiq edilən güzəştlərdir;

2.1.8. **Qaydalar** – Qiymətli kağızlar bazarında fəaliyyəti tənzimləyən normativ hüquqi aktlar, Bakı fond birjasının daxili qayda və təlimatları;

2.1.9. **Minimal alış həcmi** - market meykerin gün ərzində BFB-nin ticarət sistemində market meyker sessiyası başlayan zaman təqdim etməli olduğu alış sifarişinin minimal məbləğidir (alış qiyməti * qiymətli kağızların sayı > = minimal alış həcmi). Market meyker ona ünvanlanmış satış sifarişlərinin yalnız minimal alış həcmi qədərində olan hissəsinin alınmasına öhdəlik daşıyır.

## 3. Market meyker statusunun verilməsi üçün meyarlar

3.1. Aşağıdakı meyarlara cavab verən Birja üzvlərinə və ya Birja üzvü ilə müvafiq qaydada müqavilə bağlamış hüquqi şəxslərə (bundan sonra – müraciətçi) Birjanın İdarə Heyətinin qərarı ilə birjada ticarətə buraxılan və ya ilkin yerləşdirməyə çıxarılmış qiymətli kağız üzrə market meyker statusu verilə bilər:

3.1.1. Birjaya müraciətindən əvvəlki 3 (üç) il ərzində fəaliyyət göstərməlidir;

3.1.2. Son maliyyə ilinin nəticələri üzrə mənfəətə malik olmalıdır;

3.1.3. Market meyker birja üzvü olduqda aşağıdakı sahələrdə təcrübəyə malik olan azı iki işçiyə malik olmalıdır:

3.1.3.1. Qiymətli kağızların treyderi kimi ən azı bir il fəaliyyət göstərməlidir;

3.1.3.2. Dövlət qiymətli kağızları və ya digər bu tipli maliyyə alətləri sahəsində treyder təcrübəsinə malik olmalıdır;

3.1.3.3. Market meykerlik etdiyi qiymətli kağızın emitentinin idarəetmə orqanının üzvü olmamalıdır;

3.1.3.4. Birja tərəfindən müəyyən olunmuş digər tələblər.

3.1.4. Market meyker birja üzvü olmadıqda 3.1.3 bəndinin müddəaları onun adından çıxış edən Birja üzvünə şamil edilir.

**4. Market meyker statusunun verilməsi proseduru**

4.1. Müraciətçi bu barədə ərizə ilə Birjanın İdarə Heyətinə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

4.1.1. Ərizəçinin bu qaydaların 3-cü bəndinin tələblərinə cavab verməsini təsdiq edən sənədlər;

4.1.2. Market meyker fəliyyəti ilə məşğul olmaq üçün müraciət forması (Əlavə1);

4.1.3. Üzərinə götürdüyü gündəlik minimal alış həcmi öhdəliyinə bərabər miqdarda pul vəsaitinin birjanın hesabına köçürülməsini təsdiq edən sənəd və ya həmin həcmdə bank təminatı;

4.1.4. Market meykerin adından ticarətdə iştirak edəcək 3.1.3 bəndinin tələblərinə cavab verən treyderi barədə məlumat;

4.1.5. Market meykerin klirinq təşkilatında (depozitarda) olan hesab nömrəsi;

4.1.6. Market meykerin öz əməliyytalarını müştəri hesablarından apardıqda, market meykerin adından çıxış etdiyi müştərinin klirinq təşkilatında (depozitarda) olan hesab nömrəsi;

4.1.7. Birjanın İdarə Heyəti tərəfindən tələb edilən digər sənədlər.

4.2. Market meyker statusunun əldə edilməsinə dair ərizəyə onun təqdim edilməsindən keçən 5 (beş) iş günü ərzində Birjanın İdarə Heyəti tərəfindən baxılır.

4.3. Birjanın İdarə Heyəti ərizəçinin müraciəti üzrə müsbət qərar qəbul etdikdə onunla market meyker müqaviləsi bağlanılır. Müqavilədə aşağıdakı müddəalar nəzərdə tutulur:

4.3.1. Market meyker öhdəliklərinin həcmi;

4.3.2. Qiymət dəhlizi (Birja tərəfindən hər bir alət üzrə təyin olunmuş minimal və maksimal qiymət həddindən artıq olmamaq şərti ilə);

4.3.3. Market meykerin öhdəliklərindən azad olunması şərtləri, əgər müqavilə üzrə belə şərtlər nəzərdə tutulmuşdursa;

4.3.4. Birja tərəfindən market meykerə tətbiq edilən güzəştlər və onların tətbiqi şərtləri;

4.3.5. Market meykerin adından ticarətdə iştirak edəcək treyderi barədə məlumat;

4.3.6. Market meykerin fəaliyyətinin predmeti olan qiymətli kağızlar;

4.3.7. Market meykerin öz öhdəliklərinin icrasına başlaması müddəti;

4.3.8. Market meykerin öhdəliklərinin qüvvədə olması müddəti;

4.3.9. Müqaviləyə əlavə və düzəlişlərin edilməsi və onların qüvvəyə minməsi şərtləri;

4.3.10. Market meykerin və ya onun adından çıxış edən birja üzvünün Birja üzvlüyü dayandırıldıqda, onun öhdəliklərinin digər birja üzvləri vasitəsi ilə yerinə yetirilməsi şərtləri.

4.4. Birjada ticarətə buraxılmış hər bir qiymətli kağız üzrə bir və ya bir neçə market meyker təyin oluna bilər;

4.5. Hər bir market meyker statusunun verilməsi zamanı Birja bu barədə məlumatı açıqlayır. Məlumatda aşağıdakılar nəzərdə tutulur:

- Qiymətli kağızların dövlət qeydiyyat nömrəsi və ya ISIN kodu;
- Market meykerin adı;
- Market meykerin alış və satış öhdəliklərinin həcmi;
- Qiymət dəhlizinin minimal və maksimal hədləri;
- Birjanın İdarə Heyəti tərəfindən müyyən olunmuş digər müddəalar.

## 5. Market meykerin öhdəlikləri

5.1. Market meyker müqavilədə göstərilmiş qiymətli kağızlar üzrə gündəlik alış və satış qiymətləri müəyyənləşdirir, bu qiymətləri gündəlik olaraq Birja vasitəsilə elan edir. Qiymətlər bu Qaydalarla müəyyən edilmiş qiymət dəhlizi çərçivəsində olmalıdır;

5.2. Market meyker gündəlik olaraq müqavilədə göstərilmiş qiymətli kağızlar üzrə, bu Qaydaların və market meyker müqaviləsinin şərtlərinə uyğun olaraq Birjanın ticarət sistemində öz adından, öz hesabına alış və satış kotirovkalarını təqdim edir. Market meyker Birja üzvü olmadıqda, alış və satış kotirovkaları müvafiq qaydada Birja üzvü tərəfindən təqdim edilir.

5.3. Market meyker müqavilədə göstərilmiş qiymətli kağızlar üzrə, bu Qaydaların və market meyker müqaviləsinin şərtlərinə uyğun olaraq Birjanın ticarət sistemində öz adından, öz hesabına məcburi qaydada alış və könüllü qaydada satış kotirovkalarının icrasını təmin etməlidir. Market meyker Birja üzvü olmadıqda, öhdəliklərin icrası müvafiq qaydada Birja üzvü tərəfindən təmin edilir.

5.4. Alış kotirovkasının minimal həcmi Birjada ticarətə buraxılmış qiymətli kağızlar və maliyyə alətləri üzrə Birja tərəfindən müəyyən edilir və açıqlanır.

5.5. Satış kotirovkasının minimal həcmi market meyker müqaviləsi ilə müəyyən edilir;

5.6. Market meyker könüllü qaydada öz öhdəliklərindən artıq əqd bağlaya bilər.

5.7. Market meyker bu Qaydaların 4.1.4 bəndinə müvafiq olaraq hər bir qiymətli kağız üzrə onun adından yalnız bir treyderin iştirakını təmin etməlidir;

5.8. Market meyker Birjanın ticarət qaydalarına, qiymətli kağızlar bazarının tənzimlənməsinə dair qanunvericilik aktlarına əməl etməlidir.

5.9. Market meyker öz funksiyalarını yerinə yetirərkən aşağıda göstərilən reqlamentə əməl edir:

5.9.1. Hər ticarət günü saat 10:00-dək market meyker öz sifarişlərini elektron qaydada Birjaya təqdim edir və kütləvi açıqlayır;

5.9.2. Market meyker sessiyası birjada hər ticarət günü saat 10:00 – 16:00-dək keçirilir (12:30-dan 14:15-dək ticarət üçün fasilə müddəti nəzərə alınmaqla);

5.9.3. Market meyker minimal alış və satış kotirovkalarını (müqavilədə nəzərdə tutlduqda) market meyker sessiyası başlandıqdan 5 dəqiqə ərzində Birjanın ticarət sisteminə daxil edir;

5.9.4. Market meyker market meyker sessiyası ərzində icra olunmamış kotirovkalarını dəyişdirə bilər, lakin bu zaman kotirovkanın dəyişdirilməsi müddəti 5 dəqiqədən artıq olmamalıdır;

5.9.5. Market meyker əqdləri nəticəsində yaranmış öhdəliklərin icrası market meyker ilə Birja arasında bağlanılmış market meyker müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, əqd bağlanıldıqdan sonra növbəti ticarət günü saat 16:15-dək həyata keçirilir;

5.10. Market meyker müqavilədə nəzərdə tutulduqda aşağıdakı hallarda öhdəliklərindən azad edilir:

5.10.1. Gündəlik nəzərdə tutulmuş öhdəlikləri təmin etdikdə;

5.10.2. Birjanın İdarə Heyətinin qərarı əsasında müəyyən olunmuş müddətə;

**6. Qiymət dəhlizi**

6.1. Market meyker öz öhdəliklərini yerinə yetirərkən və bu Qaydaların 5.1-ci bəndinə uyğun olaraq qiymətlər müəyyən edərkən aşağıda göstərilən qaydada hesablanmaqla qiymət dəhlizinə əməl etməlidir:

6.1.1. səhmlərin ticarəti üzrə:

$$\mathbf{QD} = \frac{\mathbf{Q^{yüksək}_{satış} - Q^{aşağı}_{alış}}}{\mathbf{Q^{aşağı}_{alış}}} * 100\%$$

Burada, QD market meykerin səhmlər üzrə qiymət dəhlizi üçün hazırkı mövqeyidir.

$Q^{yüksək}_{satış}$ müvafiq qiymətli kağızlara verilən ən yüksək satış qiymətidir.

$Q^{aşağı}_{alış}$ müvafiq qiymətli kağızlara verilən ən aşağı alış qiymətidir

6.1.2. korporativ istiqrazlar üzrə:

$$GD = \frac{G^{yüksək}_{satış} - G^{aşağı}_{alış}}{G^{aşağı}_{alış}} * 100\%$$

Burada, GD market meykerin korporativ istiqrazlar üzrə qiymət dəhlizi üçün hazırkı mövqeyidir.

$G^{yüksək}_{satış}$ müvafiq qiymətli kağızlara verilən ən yüksək satış qiymətidir.

$G^{aşağı}_{alış}$ müvafiq qiymətli kağızlara verilən ən aşağı alış qiymətidir

6.2. Qiymət dəhlizinin maksimal və minimal hədləri Birja tərəfindən ticarətə buraxılmış hər bir alət üzrə ayrılıqda müəyyən olunur və açıqlanır;

**7. Market meykerin təqdim etdiyi hesabatlar**

7.1. Market meyker aşağıdakılar barədə hesabatları birjaya təqdim etməlidir:

7.1.1. Səlahiyyətli treyderlərinin dəyişməsi barədə məlumat – dərhal;

7.1.2. Auditdən keçmiş illik maliyyə hesabatları – iyun ayının 30-dan gec olmayaraq. Birja həmin məlumatları özünün məlumat yayımı vasitələri ilə açıqlamaq hüququna malikdir;

7.1.3. Fəaliyyətin dayandırılması, əsas fəaliyyət növünün həyata keçirilməsi ilə bağlı meydana çıxan mühüm dəyişikliklər – 1 iş günü ərzində;

7.1.4. Nəzərat orqanı tərəfindən verilmiş peşəkar fəaliyyət lisenziyaların dayandırılması və ya ləğv olunması -1 iş günü ərzində;

7.1.5. Market meyker müqaviləsində nəzərdə tutulmuş digər müddəalar.

**8. Market meykerin fəaliyyətinə nəzarət**

8.1. Birjanın qüvvədə olan daxili qaydalarının və bu Qaydaların tələblərinə uyğun olaraq Birja market meykerin öz öhdəliklərini yerinə yetirməsinə nəzarət edir;

8.2. Market meykerin bu Qaydaların tələblərinə uyğun olaraq təqdim edilmiş hesabatlardan əlavə, Birjanın İdarə Heyətinin bu barədə əsaslandırılmış qərarı ilə market meykerin fəaliyyətinin yoxlanılması üçün əlavə tələblər müəyyən edilə bilər.

**9. Market meyker statusunun dayandırılması və ya ləğvi**

9.1. Market meyker statusu aşağıdakı hallarda Birjanın İdarə Heyətinin qərarı ilə dayandırıla və ya ləğv edilə bilər:

9.1.1. Market meyker özünün qanunvericilik, bu Qaydalar və onunla bağlanmış müqavilədən irəli gələn öhdəliklərinə əməl etmədikdə, habelə qiymətlərlə manipulyasiya və öz statusundan sui-istifadə halları aşkarlandıqda;

9.1.2. Bazar iştirakçılarının maraqlarının müdafiəsi və bazarın təhlükəsizliyinin qurunması məqsədi ilə;

9.1.3. Market meyker bu statusu həyata keçirdiyi qiymətli kağızlar dövriyyədən çıxarıldıqda;

9.1.4. Market-meykerin peşəkar fəaliyyət (diler) lisenziyası müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edildikdə;

9.1.5. Birja üzvü olan market-meyker Birja üzvlüyündən çıxarıldıqda və ya üzvlüyü müvəqqəti dayandırıldıqda;

9.1.6. Market meykerlə bağlanmış müqavilənin müddəti bitdikdə və onun uzadılması barədə razılıq əldə edilmədikdə;

9.1.7. Könüllü şəkildə - market meykerlə bağlanmış müqavilənin vaxtından tez ləğv olunması barədə 30 gün əvvəl müraciət olunduqda;

9.1.8. Market meyker statusunun dayandırılması və ya onun ləğvi zamanı Birja ticarət iştirakçılarını və ictimaiyyəti məlumatlandırır (özünün rəsmi veb səhifəsi vasitəsi ilə).

**10. Qaydaların pozulmasına görə məsuliyyət**

10.1. Bu Qaydaların tələbləri market meyker tərəfindən pozulduğu halda Birjanın İdarə Heyəti ona qarşı aşağıdakı məsuliyyət tədbirləri tətbiq edə bilər:

10.1.1. xəbərdarlıq;

10.1.2. cərimə - öz öhdəliklərinin pozulmasına görə market meyker üzərinə götürdüyü cəmi net öhdəliklərin (alış öhdəliyi + satış öhdəliyi ) həcmindən 0,1 faizindən 1 faizinədək miqdarda cərimə edilə bilər. Cərimənin məbləği

pozuntunun ciddiliyinə əsasən müəyyən edilir. Cərimənin ödənilməsi müvafiq qərarın çıxarıldığı tarixdən 5 (beş) iş günü ərzində market meyker tərəfindən icra edilməlidir.

10.1.3. statusun ləğv edilməsi - market meyker tərəfindən öz öhdəliklərinin pozulması halları aradan qaldırılmadıqda və ya ay ərzində həmin pozuntular yenidən təkrar edildikdə, Birjanın İdarə Heyətinin qərarı ilə market meykerlə bağlanmış market meyker müqaviləsi ləğv edilə bilər.

10.2.Birja market meykerə qarşı tətbiq etdiyi sanklsiyalar barədə 1 iş günü ərzində nəzarət orqanını məlumatlandırır.

10.3. Birja market meykerə qarşı tətbiq etdiyi sanklsiyalar barədə məlumatı açıqlaya bilər.

## 11. Mübahisələrin həlli

11.1. Bu Qaydalardan irəli gələn və ya bu Qaydalarla bağlı, o cümlədən Qaydaların etibarlığına, qüvvədən düşməsinə, yerinə yetirilməməsi və pozulmasına dair yaranan bütün mübahisələr Birjanın Münsiflər Məhkəməsində, iddia ərizəsinin təqdim olunduğu zaman qüvvədə olan, Birjanın hüquqi statusunu müəyyən edən sənədlərə əsasən həll olunur. Birjanın Münsiflər Məhkəməsinin qərarları tərəflər üçün məcburidir.

## <u>Əlavə 1</u>

**MARKET MEYKER FƏALİYƏTİ İLƏ MƏŞĞUL OLMAQ ÜÇÜN**
**MÜRACİƏT FORMASI**

*QEYD: Bu forma Market meyker fəaliyyətinin predmeti olan hər bir qiymətli kağız üzrə doldurulmalıdır.*
*Bu sənəd market meyker müqaviləsinin ayrılmaz tərkib hissəsi hesab edilir.*

### A. MARKET MEYKER BARƏDƏ MƏLUMAT

**A1. Ümumi məlumat:**

| | |
|---|---|
| Tam adı | |
| VÖEN | |

**A2. Ünvan və əlaqə vasitələri:**

| | |
|---|---|
| Hüquqi ünvanı | |
| Faktiki ünvanı | |
| Əlaqələndirici şəxs | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Telefon | | Faks | | Digər | |

**A3. Sahib olduğu peşəkar fəaliyyət lisenziyaları:**

| Peşəkar fəaliyyət növü | Verilmə tarixi | Qüvvədə olma tarixi | Kim tərəfindən verilib |
|---|---|---|---|
| | | | |
| | | | |

**A4. Market meyker birja üzvü olmadıqda adından çıxış edəcək birja üzvü barədə məlumat:**

| | |
|---|---|
| Tam adı | |
| VÖEN | |

**Sahib olduğu peşəkar fəaliyyət lisenziyaları**

| Peşəkar fəaliyyət növü | Verilmə tarixi | Qüvvədə olma tarixi | Kim tərəfindən verilib |
|---|---|---|---|
| | | | |
| | | | |

## B. ÖHDƏLİKLƏR BARƏDƏ MƏLUMAT

**B1. Market meyker fəaliyyətinin predmeti olan qiymətli kağızlar:**

| | |
|---|---|
| Dövlət qeydiyyat nömrəsi/ISIN | |
| Emitent | |

**B2. Market meyker fəaliyyətinin predmeti olan qiymətli kağızlar üzrə ödəliklərin həcmi:**

| | |
|---|---|
| Alış | ________________ədəd |
| Satış | _______________ __ədəd |

**B3. Qiymət dəhlizi:**

**________%**

*Birja tərəfindən hər bir alət üzrə təyin olunmuş minimal və maksimal qiymət həddindən artıq olmamaq şərti ilə*

**B4. Market meyker fəaliyyəti zamanı istifadə ediləcək hesab nömrələri:**

| | |
|---|---|
| İlkin hesab | |
| Müştəri hesabı<br>*(Əməliyytalar müştəri hesablarından aparıldıqda)* | |

**B5. Qiymətli kağızların emitenti ilə razılaşmanın olması:**

Razılaşma vardır ☐ Razılaşma yoxdur ☐

## C. SƏLAHİYYƏTLİ TREYDER

**C1. Market meykerin adından iştirak edəcək səlahiyyətli treyderlər barədə məlumat:**

| **Adı, Soyadı, Atasının adı** | **Şəxsiyyəti təsdiq edən sənəd** | **Sahib olduğu peşəkar fəaliyyət şəhadətnamələri** | | | |
|---|---|---|---|---|---|
| | | **Fəaliyyət növü** | **Seriya, Nömrə** | **Verilmə tarixi** | **Qüvvədə olma tarixi** |
| | | | | | |

Xahiş edirik müraciət formasını qəbul edəsiniz

Öhəliklərinin icrasına başlanma tarixi:_________________

Rəhbər:_________________

İmza:____ _______________

*M.Y.*